◆ Azərbaycan Prezidenti İlham Əliyevin Türkmənistana işgüzar səfəri

# YENİ ƏMƏKDAŞLIQ FORMATI

## Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən Azərbaycan, Türkmənistan və Özbəkistanın mühüm strateji mövqeyi böyük region üçün xüsusi əhəmiyyət daşıyır

## Azərbaycan Prezidenti İlham Əliyevə "Axaltəkə" atı hədiyyə edilib

**Avqustun 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Türkmənbaşı şəhərində "Axaltəkə" atlarına və milli "Galkynysh" atlı qrupunun çıxışına baxıblar.**

AZƏRTAC xəbər verir ki, sonra Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun və türkmən xalqının adından dövlətimizin başçısına "Taus" ləqəbli "Axaltəkə" atını hədiyyə edib.

Daha sonra Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun və türkmən xalqının adından Özbəkistan Prezidenti Şavkat Mirziyoyevə dəvə hədiyyə edib.

Tədbirdə çıxış edən **Qurbanqulu Berdiməhəmmədov** dedi: Hörmətli cənablar. Əziz dostlar. Əziz dostum.

Türkmənistan Prezidentinin və bütün türkmən xalqının adından bu sertifikatı qardaşım, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təqdim etmək istəyirəm. Biz türkmənlərdə deyirlər ki, "At xalqın dayağıdır". Türkmənlərin dediyi kimi, "At xoşbəxtlik gətirir". Atın adı "Taus"dur. Bu ad "Yaşasın Türkmənistan, Azərbaycan, Özbəkistan!" mənasını ifadə edir.

Təşəkkür edirəm.

**Prezident İlham Əliyev** dedi: Əziz qardaşım Qurbanqulu Məlikquliyeviçə bu gözəl hədiyyəyə görə dərin minnətdarlığını bildirmək istəyirəm. "Axaltəkə" atı dünyada məşhurdur, türkmən xalqının, Türkmənistanın milli brendidir. Bütün cahanda gözəl ada layiq olan bir atdır və bu hədiyyə dostluq, qardaşlıq rəmzidir. Onu da deməliyəm ki, bildiyimiz kimi, türkmən və Azərbaycan xalqları qardaş xalqlardır. Eyni zamanda bizi birləşdirən odur ki, həm türkmənlərin, həm də azərbaycanlıların öz at cinsi var - "Axaltəkə" və Qarabağ. Necə ki, biz qardaşıq, onlar da qardaşdırlar. Bir daha təşəkkür edirəm. Burada gözəl at şousunu bizə nümayiş etdirən igidlərimizə də dərin minnətdarlığımı bildirirəm. Afərin olsun sizə.











